

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 171 (21.581)

12 sentyabr 2016-cı il, bazar ertəsi

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb terminalı" istifadəyə verilib





Sentyabrın 11-də Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb terminalı" istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov açılışı bildirən lenti kəsmişlər.

Məlumat verilmişdir ki, Naxçıvan Beynəlxalq Hava Limanının aerovağzal binası tamamilə yenidən qurulmuş, keçid körpüləri və teleskopik traplar quraşdırılmışdır. Aerovağzal binası Şərq və Qərb terminallarından ibarətdir. "Qərb terminalı"nda minik və enişlərin təmin olunması üçün ən müasir tipli teleskopik trap quraşdırılmışdır. Teleskopik trap vasitəsilə sərnişinlər rahatlıqla təyyarələrə minəcək, həmçinin təyyarədən terminal binasına keçəcəklər. Müasir avadanlıqların quraşdırılması sərnişinlərin rahatlığına və uçuşların təhlükəsizliyinə imkan verəcəkdir.

Sərnişin və yüklərin təhlükəsiz və beynəlxalq normalara uyğun daşınmasının təşkil edilməsi üçün terminalda yüksək standartlara cavab verən yoxlama avadanlıqları, 2 ədəd eskalator, məhdud hərəkətli sərnişinlər üçün lift, uşaq əyləncə guşəsi, tranzit səyahət edən sərnişinlər üçün zal, 41 metr uzunluğunda yeni baqaj konteyneri, ana və uşaq otaqları, kafe, tibb otağı, hərbçi ailələri üçün istirahət otağı və digər xidməti otaqlar istifadəyə verilmişdir. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artmış, aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatdırılmışdır. Həmçinin Naxçıvan Beynəlxalq Hava Limanı eyni vaxtda bir neçə təyyarəni, o cümlədən tranzit uçan təyyarələri qəbul edib, yolasalma imkanına malikdir.

Binada xarici reyslərin qarşılanıb-yola salınması üçün pasport-qeydiyyat bölmələri və viza otağı, o cümlədən sərhəd, gömrük və miqrasiya xidmətlərinin əməkdaşları üçün müasir iş şəraiti yaradılmış, Azərbaycan, ingilis və rus dillərində elektron informasiya köşkü qurulmuşdur. Terminal videonəzarət sistemi ilə təmin edilmiş, kafe fəaliyyətə başlamışdır.

"Qərb terminalı" ilə tanışlıqdan sonra kollektivlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kollektivi təbrik edərək demişdir: Yaxşı iş şəraiti yaxşı əhval-ruhiyyə deməkdir. Naxçıvan Beynəlxalq Hava Limanında işçilər üçün hərtərəfli iş şəraiti yaradılmış, aerovağzal binası ən müasir tələblər səviyyəsində qurulmuşdur. Dövlətimiz tərəfindən bu tədbirlər ona görə həyata keçirilir ki, ölkəmizə gələn qonaqların və əhalinin rahatlığı hava limanlarında təmin olunsun. Naxçıvan Muxtar Respublikası üçün hava nəqliyyatında xidmətin hərtərəfli təşkili daha vacibdir. Çünki muxtar respublikaya gələn qonaqlar əsasən hava limanından istifadə edirlər. Hava limanında yaradılan şərait, göstərilən xidmət gələn qonaqlarda Naxçıvan haqqında ilk təəssürat yaradır. Ona görə də işçilər yaradılan şəraitdən səmərəli istifadə etməli, qurulanları qoruyub saxlamalı, xidməti vəzifələrini öyrənməli, nümunəvi xidmət göstərməlidirlər.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmiz müharibə şəraitində yaşayır. Lakin ölkə Prezidentinin diqqət və qayğısı ilə digər sahələrdə olduğu kimi, hava nəqliyyatının





inkişafı istiqamətində də ardıcıl tədbirlər görülür. Naxçıvan Beynəlxalq Hava Limanının yenidən qurulması da bu tədbirlərin tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2015-ci ildə Naxçıvan Beynəlxalq Hava Limanının "Şərq terminalı" istifadəyə verilmişdir. Bu gün isə "Qərb terminalı" fəaliyyətə başlayır.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, hava limanının yenidən qurulmasında əməyi olanlara təşəkkür etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Muzey günləri" çərçivəsində ziyarətlər davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələri yerinə yetirmək məqsədilə muxtar respublikada mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müxtəlif idarə, müəssisə və təşkilatların əməkdaşları muzeylərə gedir, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlarla tanış olurlar. Son vaxtlar bu sıraya Nəbatat bağı da daxil olub. Muxtar respublikamızın nadir təbiəti, zəngin bitki aləmi ilə yaxından tanış olmaq məqsədilə bu ünvana təşkil olunan gedişlər insanlarda yüksək əhval-ruhiyyə yaradır, onlara regionumuz barədə əlavə məlumatlar verir.

Sentyabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Nəbatat bağında olublar. Burada onlara məlumat verilib ki, Nəbatat bağlarının ən qədim nümunələrinə Çində və Aralıq dənizi sahili ölkələrində rast gəlinib. Bu bağlarda meyvə ağacları, tərəvəzlər, dərman istehsalında lazım olan bitkilər becərilib və onlardan istifadə edilib.

Naxçıvan Muxtar Respublikası zəngin bitki örtüyü, heyvanlar aləmi və təbii sərvətlərə malik olan diyardır. Bu baxımdan burada Nəbatat bağının yaradılması əhəmiyyətli və mühüm addımdır. Babək rayonunun Şıxmahmud kəndi yaxınlığında Nəbatat bağının yaradılması məqsədilə 1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının təşəbbüsü və Naxçıvan MSSR Nazirlər Sovetinin qərarı ilə 10 hektar torpaq sahəsi ayrılıb, bu sahə su ilə təchiz edilib və nəticədə, belə bir gözəl məkan yaradılıb.

Nəbatat bağının yaradılmasında əsas məqsəd insanların Avstraliyanın, Afrikanın, Amerikanın, Aralıq dənizi ölkələrinin, Cənub-Şərqi Asiyanın, Orta Asiyanın, Uzaq Şərqin, Qafqazın zəngin flora nümunələri ilə tanış edilməsidir. Bağın nadir bitkilər kolleksiyası sahəsində Azərbaycan və Naxçıvan Muxtar Respublikasının Qırmızı kitablarına daxil edilmiş bəzi bitki növləri mövcuddur. Burada ayrı-ayrı flora nümunələri üçün sahələr, təcrübə yerləri, nadir bitkilər kolleksiyası, tingçilik sahələri, həmçinin meyvə genofondu bağı yaradılıb. Bu da yerli və məhsuldar toxum sortlarının bərpası baxımından mühüm əhəmiyyət daşıyır.

Nəbatat bağının sahəsi hazırda 13,2 hektar, muxtar respublika üzrə balansında olan torpaqların sahəsi isə 80 hektardan artıqdır. Nəbatat bağında "Ultra Sera" ailəsinə məxsus son texnologiyaya malik istilikxana quraşdırılıb. İstilikxana tam avtomatlaşdırılmış iqlim-nəzarət, istilik, havalandırma və suvarma sistemləri ilə təchiz edilib. Müasir texnologiyaların tətbiqi bitkilərin normal inkişafına imkan verir. Burada sitrus, Hind-Çin, Afrika, Avstraliya, Ərəbistan və digər bu kimi mənşəli bitkilər olmaqla, 10 bölmə yaradılıb və 100-ə yaxın bitki əkilib. Artıq bu bitki növlərinin bəziləri muxtar respublikanın iqlim şəraitinə uyğunlaşdırılıb və açıq havada çoxaldılmasına başlanılıb. Təcrübə sahələrində Naxçıvan Dövlət Universitetinin Biologiya və Coğrafiya ixtisaslarının tələbələrinin iştirakı ilə açıq dərslər keçilir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin də kollektivləri Nəbatat bağında olublar.

Sentyabrın 10-da Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının, "Şərq qapısı" qəzeti redaksiyasının, Dövlət Meliorasiya və Su Təsərrüfatı, Statistika komitələrinin əməkdaşları "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksini ziyarət ediblər.

Həmin gün muxtar respublikanın rayonlarındakı idarə, müəssisə və təşkilatların əməkdaşları da müvafiq olaraq rayon ərazisində yerləşən muzeyləri ziyarət ediblər.

**Xəbərlər şöbəsi**

# Latviya və Litva respublikalarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri Naxçıvandan xoş təəssüratlarla ayrılıblar

*Xəbər verdiyimiz kimi, sentyabrın 7-9-da Latviya və Litva respublikalarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində muxtar respublikanın gəzməli-görməli yerləri, eləcə də təhsil, mədəniyyət, səhiyyə və istehsal müəssisələri ilə tanış olublar. Hər iki diplomat Naxçıvanla bağlı təəssüratlarını "Şərq qapısı" qəzeti ilə bölüşüblər.*

***Latviya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovs:***



– Mən artıq bir ildən çoxdur ki, Azərbaycanda səfir kimi fəaliyyət göstərirəm. Bu müddətdə paytaxt Bakı da daxil olmaqla, Azərbaycanın bir çox bölgələrində olmuşam. Naxçıvana isə ilk səfərimdir. Səfərimizin əsas məqsədi Naxçıvanla tanış olmaq idi. Deyə bilərəm ki, bu regionla bağlı zəngin təəssüratlar ala bildik. Naxçıvanın həm qədim tarixi, həm də müasir inkişafı məni valeh etdi. Burada olarkən muzeyləri gəzdik, tarixi abidələrin yerləşdiyi ünvanlarda olduq. Gördük ki, Naxçıvan çox zəngin mədəni irsə malikdir. Məsələn, biz qədim Naxçıvan mədəniyyətinin bir parçası olan xalçalarla tanış olduq. Xalça muzeyində bizə bununla bağlı ətraflı məlumatlar verildi. Öyrəndik ki, xalça toxumaq ənənəsi indi də davam etdirilir. Digər tərəfdən Naxçıvanda biznesin inkişafı üçün münbit şəraitin yaradıldığını gördük. Şəhərdə yerləşən bir neçə istehsal müəssisəsini gəzdik. Yerli xammala əsaslanan bu müəssisələrin qurulması çox təqdirolunasıdır. Bir daha gördük ki, Naxçıvanın zəngin xammal mənbələri burada sənayenin inkişafında əsas istiqamət kimi götürülüb. Eyni zamanda muxtar respublikada kənd təsərrüfatının hərtərəfli inkişafı da bizim üçün diqqətçəkən sahələrdən oldu. Biz Naxçıvanın yerli sənaye və kənd təsərrüfatı məhsullarından ibarət sərgiyə baxdıq. Keyfiyyəti ilə seçilən bu məhsulların gələcəkdə Latviya bazarına çıxarılması haqqında da düşünürük. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri ilə görüşümüzdə də bu barədə söhbət etmək imkanımız oldu. Ümid edirəm ki, yaxın gələcəkdə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Latviya arasında müxtəlif əməkdaşlıqların qurulmasına nail olacağıq.

***Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas:***



– Mən də cənab Maklakovsun fikirləri ilə razıyam. Naxçıvana ikigünlük səfərimiz, həqiqətən, çox maraqlı keçdi. Baxmayaraq ki, bu, Naxçıvanı tanımaq üçün az bir vaxt idi. Naxçıvanda aldığım təəssüratlar uzun müddət yaddaşımdan silinməyəcək. Burada bütün sahələrin inkişaf etdiyini gördük. Məsələn, buradakı ali təhsil ocaqları ilə tanışlığımızda yeni, müasir infrastrukturun yaradıldığının şahidi olduq. Hiss olunur ki, Azərbaycan dövləti təhsilin inkişafına ciddi maraq göstərir. Bu, çox vacib məsələdir. Hesab edirəm ki, bu ali təhsil müəssisələri ilə Litva universitetləri arasında sıx əməkdaşlığın yaradılması müsbət nəticələr verər. Bundan əlavə, qeyd etmək istərdim ki, Naxçıvanın iqtisadi inkişafında burada yaradılmış işgüzar mühit böyük rol oynayır. İki gün ərzində biz muxtar respublikanın bir neçə istehsal müəssisəsində olduq. Yerli məhsulların sərgiləndiyi mərkəzlə tanışlıq bizdə xoş təəssürat yaratdı. Məlumatım var ki, Naxçıvanda çox dadlı-tamlı kənd təsərrüfatı məhsulları yetişdirilir. Muxtar respublikanın təbii iqlim şəraiti bu məhsulların davamlı istehsalına, məhsul həcminin daha da artırılmasına imkan verir. Daha çox xoşuma gələn isə Naxçıvanın təmizliyi və buranın təbiəti oldu. Hiss olunur ki, insanlar bu təmizliyi qoruyub saxlaya bilirlər. Muxtar respublikanın təbiəti isə özünəməxsusluğu ilə seçilir. Biz Batabat yaylağında, Ağbulaq kəndində olduq. Burada turizmin inkişafı üçün lazımi şərait yaradılıb. Ümumiyyətlə götürdükdə isə Naxçıvanın çox böyük turizm potensialı var. Biz burada rəsmilərlə görüşlər keçirdik, müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlığın vacibliyini vurğuladıq. Hesab edirəm ki, hər iki ölkənin bir-birini daha yaxından tanıması, qarşılıqlı əlaqələrin bütün sahələrdə yaradılması üçün yaxşı imkanlar var və bunu dəyərləndirməliyik.

**✍ Səbuhi HƏSƏNOV**

# Naxçıvandakı diplomatik heyət öz peşəkarlığı ilə seçilir

***Xəbər verdiyimiz kimi, sentyabrın 9-dan başlayaraq ADA Universiteti tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin əməkdaşlarının iştirakı ilə üçgünlük kursa start verilib. Kursun gedişində ADA Universitetinin əməkdaşı Hikmət Hacıyevlə görüşüb həmsöhbət olduq:***

***– Hikmət müəllim, bu kursun keçirilməsində əsas məqsəd nədən ibarətdir?***



– Əvvəlcə onu qeyd edim ki, Azərbaycanın tarixi guşələrindən biri olan Naxçıvanda olmaqdan böyük sevinc hissi keçirirəm. Blokadada yaşamasına baxmayaraq, muxtar respublikanın son illərdə böyük inkişaf yolu keçməsi, Naxçıvan şəhərinin öz gözəlliyinə, səliqəsahmanına görə ölkəmizin nümunəvi şəhərləri sırasında olması, onun nəinki ölkəmizdə, hətta ölkə hüdudlarından kənarda yüksək səviyyədə təqdim edilməsi hər bir Azərbaycan vətəndaşı kimi, məni də qürurlandırır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi xarici siyasətin mühüm bir istiqamətini həyata keçirir və Azərbaycana səfər edən nümayəndə heyətlərinin Naxçıvana gəlişi zamanı onlara adıçəkilən idarə tərəfindən yüksək səviyyədə diplomatik xidmət göstərilir. Naxçıvana səfərlər zamanı xarici ölkələrin diplomatları bu diyarın timsalında Azərbaycanın inkişafının, investisiya qoyuluşu üçün imkanların genişliyinin, əlverişli biznes mühitinin yaradılmasının, insanların həyat səviyyəsinin gündən-günə yaxşılaşmasının şahidi olurlar. Naxçıvana səfər edən nümayəndə heyətlərinin səfərləri çox məzmunlu, çox geniş, bütün diplomatik protokol qaydalarına uyğun olaraq həyata keçirilir. Bundan əlavə, burada İran İslam Respublikasının və Türkiyə Cümhuriyyətinin Baş konsullluqları da fəaliyyət göstərir ki, bu da nəinki ölkə paytaxtında, hətta bölgələrdə də diplomatik fəaliyyətin yüksək səviyyədə qurulmasından xəbər verir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi bu diplomatik nümayəndəliklərin fəaliyyəti üçün hərtərəfli imkanlar yaradır. Naxçıvan eyni zamanda ölkəmizin ev sahibliyi etdiyi bir sıra qlobal miqyaslı beynəlxalq tədbirlərin əsas məkanlarından biridir, bu günə qədər burada çoxsaylı belə tədbirlər keçirilib. Yaradılan geniş infrastruktur imkanları, eləcə də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin əməkdaşlarının məhsuldar fəaliyyəti böyük miqyaslı tədbirlərin yüksək səviyyədə keçirilməsinə şərait yaradır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bir elementi olan ADA Universitetinin xətti ilə ölkəmizdə mütəmadi olaraq treninqlər və proqramlar həyata keçirilir. Bir müddət öncə ADA Universitetinin rəhbərliyi tərəfindən belə bir təşəbbüs irəli sürüldü ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsində də bu qəbildən olan treninqlər keçirilsin. Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin təşkilati dəstəyi ilə biz kursun keçirilməsinə başladıq. Burada əsas hədəfimiz Azərbaycan xarici siyasətinin gündəmində olan məsələlərlə əlaqədar fikir mübadiləsi aparmaq, idarənin əməkdaşlarını beynəlxalq aləmdə gedən proseslərlə yaxından tanış etmək, onları ölkəmizin xarici siyasətində baş verən yeniliklər haqda ətraflı məlumatlandırmaqdır.

***– Kursda ən çox söhbət açılan məsələlərdən biri də diplomatiyanın yeni trendlərindən olan ictimai diplomatiya oldu. Deyə bilərsinizmi, bu sahəyə bütün dünyada, eləcə də Azərbaycanda niyə bu qədər əhəmiyyət verilir?***

– Hər bir ölkənin xarici siyasətində ikitərəfli, çoxtərəfli münasibətlərlə yanaşı, ictimai diplomatiya, yəni xarici ölkələrdə geniş ictimaiyyətə ölkə haqqında məlumatların çatdırılması mühüm yer tutur. Buna görə də biz kurs zamanı ictimai diplomatiya, onun alt elementləri olan ölkənin brendləşdirilməsi, bu istiqamətdə təbliğatın aparılması, sosial şəbəkələrin rolu haqqında geniş söhbət açdıq. Qeyd edildi ki, son illər ictimai diplomatiya və ya xalq diplomatiyası beynəlxalq ictimai əlaqələr nöqteyi-nəzərindən daha çox diqqət çəkir. Qloballaşma dövründə dünya ölkələri bütün səviyyələrdə aralarında münasibətlər yaradılmasına böyük əhəmiyyət verirlər. İctimai diplomatiyanın məqsədi ölkələr, xalqlar, siyasi liderlər, ictimai xadimlər və sadə vətəndaşlar arasında bilavasitə təmas nöqtələri tapmaq, ölkənin siyasəti və dəyərləri haqqında daha çox informasiya verməkdir. Başqalarının səni tanıması və başa düşməsi üçün əvvəlcə sən özün digər tərəfi eşitməyə və başa düşməyə çalışmalısan. Qloballaşma dövründə milli hökumətlərin sosial və iqtisadi perspektivə hesablanmış məqsədyönlü ictimai diplomatiyası ölkənin milli imicinin yaradılmasına xidmət edir. İndi interaktiv kommunikasiya üçün internetin yaratdığı imkanlar ictimai diplomatiya proseslərinə daha dolğun və əhatəli məzmun verir. Qlobal internet şəbəkəsi informasiya, bilik və ideyaların yayılması üçün çox əlverişli kanaldır. Yeni kommunikasiya texnologiyaları bu gün xarici siyasətdə sürətlə tətbiq olunur, dünya dövlətləri arasında ictimai diplomatiya sahəsində bir yarış və rəqabət mühiti yaradır. Dövlətlər bu imkandan daha intensiv faydalanmağa çalışırlar. Texnologiyaların inkişafı qeyri-hökumət təşkilatlarını, o cümlədən fəal ictimai qrupları, ayrı-ayrı fərdləri ictimai diplomatiya prosesinə qoşur, milli dövlət və hökumətləri həmin qüvvələrlə interaktiv əməkdaşlığa sövq edir. Milli hökumətlər bugünkü ictimai diplomatiya sahəsində yeni kommunikasiya texnologiyalarını tətbiq etməklə siyasət və diplomatiyada rəqabət üstünlüyü əldə etməyin əhəmiyyətini getdikcə daha artıq başa düşürlər. Sayı milyonlarla ölçülən publika ilə işləməklə bugünkü ictimai diplomatiya paradiqmasını dəyişmək mümkündür. Bunun üçün dünya şəbəkəsi olan internetin əvəzi yoxdur. Çünki internet sərhəd tanımır. İctimai əlaqələri diplomatiyaya tətbiq edərkən internetin dialoq, ikitərəfli və interaktiv təbiətini nəzərə almaq lazımdır. Fərdi və şəxsi təmaslar qlobal ictimai təmaslara çevriləndə nəhəng güc yaranır, milli dövlətlərin ictimai diplomatiya səmərəliliyi artır.

***– Kurs zamanı daha hansı məsələlər haqda iştirakçılara məlumat verildi? Kursun gedişində yerli diplomatik heyətin fəallığını necə dəyərləndirirsiniz?***

– Bildiyiniz kimi, kursda bütün təqdimatlar və müzakirələr, eləcə də diskussiyalar ingilis dilində aparılır. Yeri gəlmişkən, onu da qeyd edim ki, Naxçıvanın gəzməli-görməli yerləri, tarixi abidələri, ümumilikdə, bu diyarın özünəməxsus xüsusiyyətləri və bütün bunların ölkə xaricində beynəlxalq ictimaiyyətə tanıdılması yolları barədə də naxçıvanlı həmkarlarımızla geniş söhbətlərimiz oldu, onlardan maraqlı təkliflər eşitdik. Kursda Azərbaycanın xarici ölkələr ilə əlaqələrinin hazırkı vəziyyəti, xarici və yerli media orqanları ilə iş, dövlət orqanlarının fəaliyyətində vətəndaşlara xidmət baxımından şəffaflığın təmin olunması, konsulluq xidməti qarşısında qoyulan müasir tələblər, diasporaya yardımın müasir aspektləri, diplomatik protokol, diplomatik etiket və digər məsələlər də müzakirə mövzusu oldu. Kurs zamanı o da qeyd edildi ki, bu gün Naxçıvan beynəlxalq tədbirlərin məkanına çevrilməklə bərabər, həm də ölkə turizmində önəmli yerə malik bir diyardır. Turistlərə lazımi konsulluq xidməti göstərilməsi, eləcə də müxtəlif məqsədlərlə xarici ölkələrə getmək üçün vətəndaşlara vizaların verilməsinin müasir tələblər əsasında təşkili, beynəlxalq tədbirlərə protokol dəstəyinin göstərilməsi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən yüksək səviyyədə həyata keçirilir. Əməkdaşların fəallığına gəlincə isə tam əminliklə deyə bilərəm ki, bu tədbirə qatılanlar verilən məlumatlara qarşı diqqət, müzakirə olunan məsələlərə qarşı həssaslıq, yüksək intellekt, ortaya atılan hər hansı bir problemin qısa zamanda və yüksək səviyyədə həlli bacarığını nümayiş etdirdi. Naxçıvandakı diplomatik heyət bütün tapşırıqların öhdəsindən vaxtında və yüksək keyfiyyətlə gəlmək iqtidarındadır. Bu, bizi çox sevindirir.

**– Maraqlı müsahibə üçün sağ olun.**

**✍ Səbuhi HÜSEYNOV**

***Şahbuz Rayon İcra Hakimiyyətində keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açıb.***

## "Daşınmaz əmlakın qeydiyyatı, torpaqlardan səmərəli istifadə və mühafizəsinin gücləndirilməsi" mövzusunda növbəti tədbir



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə məruzə edib.

Bildirilib ki, əhalinin artım tempi, əkinəyararlı torpaq sahələrinin məhdudluğu, ərzaq məhsulları ilə etibarlı təminatın möhkəmləndirilməsi zərurəti torpaq münasibətlərinin düzgün şəkildə tənzimlənməsini, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizminin mütəmadi olaraq təkmilləşdirilməsini tələb edir. İmzalanmış fərman və sərəncamların, qəbul olunmuş dövlət proqramlarının icrası aqrar istehsalın inkişafında yeni mərhələ olmaqla yanaşı, bu sahənin inkişafında əvəzsiz rola malik olan torpaqdan düzgün və səmərəli istifadəni də günün tələbinə çevirib.

Qeyd olunub ki, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpaq sahələrinin özbaşına tutulması, torpaq sahələrində qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi, istehsalat və məişət tullantıları, kimyəvi və radioaktiv maddələrlə, habelə çirkab suları ilə çirkləndirilməsi, torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələşdirilməsi, tikilməsi və istismara verilməsi, mülkiyyətdə istifadə olunan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsi, torpaqların dövlət uçotundan, qeydiyyatından gizlədilməsi, kəmiyyət və keyfiyyətinə dair məlumatların təhrif edilməsi kimi hərəkətlərdən çəkinməlidirlər. Vətəndaşlar bilməlidirlər ki, qeyd olunan əməllərin törədilməsi torpaqdan qanuni istifadə, ona sahiblik və onun barəsində sərəncam verməmin qaydalarını pozur, torpaqların təyinatının dəyişilməsinə və qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Tədbirdə komitənin Yerquruluşu, torpaq ehtiyatlarından istifadə və geodeziya, xəritəçəkmə işləri sektorunun müdiri Oqtay Məmmədovun "Torpaqlardan qanunsuz istifadə hallarının aradan qaldırılması və mühafizəsi", Daşınmaz əmlakın inventarlaşdırılmasına və qiymətləndirilməsinə nəzarət sektorunun müdiri Məcid Abdullayevin "Daşınmaz əmlakın kadastrı və qeydiyyatı ilə bağlı qanunvericiliyin tələbləri" mövzularında çıxışları olub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, onlara Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin hazırladığı bukletlər paylanılıb.

**✍ Kərəm HƏSƏNOV**

Yurdumuzu tanıyaq və tanıdaq

# Naxçıvan-Əlincə turizm marşrutu

(Əvvəli qəzetin 18 avqust 2016-cı il tarixli sayında)

***Əlincənin zirvəsinə qədər gəlib çatmış turistlərdə qeyri-adi təsəvvürlər formalaşır. Bir çox hallarda əcnəbilərlə, ümumiyyətlə, Naxçıvana ilk dəfə gələn turistlərlə ünsiyyət zamanı belə hal müşahidə olunur. Şübhəsiz, Əlincənin əzəməti, nəhəng sal qayalar üzərində şahların səltənətinə meydan oxumuş qəhrəman qala müdafiəçilərinin ayaq izləri buraya gələn hər bir kəs üçün dərin maraq obyektidir. Tarixi mənbələrə görə, bu müdafiəçilərin sayı altı yüzdən artıq olub. Əgər qala ilə tanışlıq zamanı qanadlarını gərərək Əlincə səmalarında süzən dağ qartalları peyda olarsa, bu, həmin ekskursiyada iştirak edən turistlər üçün əla fotoovçuluq fürsəti olacaqdır.***



2014-2015-ci illərdə Əlincəqala bərpa olunarkən onun ərazisindən tapılmış maddi-mədəniyyət nümunələri, məişət əşyaları burada uzun müddət ərzində formalaşmış insan məskənlərindən xəbər verir.

Qalanın quruluşu ilə tanışlıq turistlərin buraya daxil olduğu qərb girişindən başlayır. Tarixi mənbələrə görə, qalanın iki, bəzən isə üç giriş qapısı olması barədə fikirlər vardır. Tarixi mənbələrə görə, Xanəgah kəndi tərəfdə yerləşən şərq girişi qalanın əsas giriş yollarından biri olsa da, qərb yamacı boyunca çəkilmiş müdafiə divarları, onların bərpadan sonrakı görünüşü turistlərdə böyük maraq oyadacaqdır. Qalanın mərkəz hissəsinə daxil olan turistlər bir anda özlərini qədim bir Şərq şəhərindəymiş kimi hiss edəcəklər. Xüsusən qalanın gecə işıqlandırılması zamanı bu, daha möhtəşəm görünür. Qalanın ən böyük sahəsini tutan bu hissədə qədim qala sakinlərinin istifadə etdikləri yaşayış binaları turistlərin marağına səbəb olacaqdır. Belə ki, çox geniş olmasa da, qalanın mərkəzi hissəsində insanların yaşaya bilməsi üçün mövcud yerlərdən maksimum dərəcədə səmərəli istifadəyə çalışılıb. Xüsusən ekskursiya zamanı turistlərə yaşayış sahəsi kimi istifadə olunmuş yerlər, burada üzə çıxarılmış təndirlər, həvənglər, əl dəyirmanları maddi-mədəniyyət nümunələri kimi təqdim olunur. Yaşayış sahəsi kimi istifadə olunmuş birotaqlı mənzillər xalqımızın min il öncəsindəki həyat tərzini, yüksək mədəniyyətini göstərən mühüm maraq obyektidir. Turistlər bilməlidirlər ki, burada müdafiə olunmuş insanlar nə qədər ağır və ekstremal bir şəraitdə yaşasalar da, ümumi mədəniyyətdən kənara çıxmamışlar.

Əlincəqalanın turistlərdə maraqdoğuran digər mühüm hissəsi yerli əhali arasında "Şahtaxtı" da adlandırılan Əlincənin iç qalasıdır. Bura dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşir və ora getmək üçün sıldırım qayadan keçilir. Odur ki buraya qalxmaq ekstremal yürüş həvəskarları üçün əsl fürsətdir. Şahtaxtına qalxmaq istəyən turistlər bilməlidirlər ki, bir zamanlar qalaya hökmranlıq etmiş şahların iqamətgahları məhz burada yerləşib. Şahtaxtıda turistlərin görmək istədiyi çox maraqlı yerlər arasında bir-biri ilə dar keçidlə əlaqələndirilmiş kiçik otaqlar və hovuzlar vardır. Bu hovuzlardan da biri həcminə görə Əlincəqalada mövcud olan ən böyük hovuzdur.



Əlincəqalada uzun illər müdafiə olunaraq ad-san çıxarmış insanların qəhrəmanlığı və onların bu sərt qayalıq şəraitində ərzaq və su təminatı istənilən səyahətçidə böyük maraq yaradır. Doğrudan da, çətin şərtlər altında yaşayan insanların, sözün əsl mənasında, necə daşdan çörək və su çıxara bildiyini göstərmək üçün Əlincəqaladan daha əyani nümunə ola bilməz. Ona görə də Əlincəqaladakı tarixi hidrotexniki qurğularla tanış olan turistlərin nəzərində mübarizə anlayışı haqqında tamamilə başqa bir təsəvvür yaranır. Əlincəqalada, habelə qalanın yuxarı hissəsindəki Şahtaxtıda inşa olunmuş su hovuzları və bunları doldurmaq üçün qayada çəkilmiş kanallar turistlərdə böyük maraq doğurur. Şübhəsiz, Əlincəqalanın sərt qayalarında primitiv baltalarla böyük səbir və zəhmətlə çapılmış su hovuzlarına, bunlara su gətirən və bəzilərinin uzunluğu 200 metrə çatan kanallara tamaşa etdikdə bunun arxasında nə qədər böyük yurd sevgisi dayandığını görməmək mümkün deyil. Bu qurğuların tikilməsi zamanı sərf olunmuş fiziki və yaradıcı əmək naxçıvanlıların ta qədimdən heç bir blokada ilə qorxudulmasının mümkün olmadığını göstərən ən böyük sübutdur. Həmin hidrotexniki qurğulara baxan turistlər bilməlidirlər ki, bunlar Naxçıvana səyahətləri zamanı onlara təqdim olunacaq müasir derivasiyatipli iri su elektrik stansiyalarının, əslində, qədim əcdadıdırlar. Beləliklə, Əlincəqalaya səyahət zamanı buradakı hovuzlar və kəhrizlərlə tanış olan turistlər tarixin müəyyən dövrlərində qalanın uzun müddət ərzində necə müdafiə olunduğunun sirləri ilə canlı tanış ola biləcəklər.

Turizm təşkilatçılığı zamanı turistlərin motivlərinə görə onların səyahət marşrutlarının seçilməsi əsas məqamlardandır. Əlincəyə səyahət edən turistlər üçün əsas maraq tarix və mədəniyyət olduğundan buraya səfər edən hər kəs qalanın Azərbaycan xalqının, onun milli dövlətçilik tarixindəki əhəmiyyəti haqqında məlumatları böyük maraqla dinləyəcəkdir. Belə ki, Əlincəqala haqqında XIV əsrin sonları, XV əsrin əvvəllərinə aid dövrləri əhatə edən tarixi hadisələr geniş yayılsa da, daha qədim mənbələrdə qalanın yaranma tarixinin eramızın ilk yüzilliklərinə qədər gedib çıxdığı sübut edilib. Bu baxımdan qala ərazisindən tapılmış və hazırda buradakı muzeydə nümayiş etdirilən VII əsrə aid gümüş sikkə böyük maraq obyektidir. Şübhəsiz, Əlincənin Azərbaycan Atabəyləri dövlətinin hakimiyyəti dövründəki hərbi-strateji və iqtisadi-siyasi əhəmiyyəti ilə yanaşı, Cəlairilər, Qaraqoyunlular, Səfəvilər dövründə də mühüm əhəmiyyəti qeyd olunmalıdır. Məhz bu yolla orta əsrlər dövründə Səmərqənddən Bağdada, İstanbuldan Təbrizə qədər geniş bir ərazidə baş vermiş hərbi-siyasi və iqtisadi proseslərdə Əlincənin rolu izah olunduqca turistlərin Naxçıvan haqqındakı təsəvvürləri birə-beş artacaq, dünyagörüşləri dərinləşəcək.

Əlincəqala xalqımızın milli sərvəti, dünya mədəni mirasının mühüm xəzinəsidir. Yüzillər boyu bu möhtəşəm təbiət və insan əli möcüzəsi müxtəlif məqsədli maraq obyekti olub. Kimi burada dünyanı qorxuya salmış işğalçılara qarşı meydan oxuyub, kimi də son sığınacaq kimi Əlincəyə üz tutub. Ancaq bunlar hamısı tarixdə qalıb. Zaman öz sözünü deyir. Əlincənin müasir ünvanı isə inkişaf edən Azərbaycan, tərəqqiyə qovuşan Naxçıvan Muxtar Respublikasıdır. Bu gün Əlincənin tarixində yeni bir mərhələ, onun dünya mədəniyyətinə qazandırılması mərhələsi başlayıb. Qalanın tarixi bərpası onun sorağına gələnlərdə yeni maraq yaradıb. Bu dəfə Əlincənin zirvəsinə qalxanlar min kilometrlərlə uzaqlardan gəlmiş əcnəbi turistlər, ölkəmizin, muxtar respublikamızın ziyalıları, jurnalistlər, tələbələr, məktəblilərdir. Buraya səfərdən gözlənilən isə tarixi nostalji hisslərlə dolu təəssürat alıb mənəvi zənginliyə qovuşmaqdır. Bu təəssürat isə dolğun olacaq. Çünki Əlincəqala və ətrafı belə xəzinələrlə çox zəngindir.

*(Ardı var)*

**Əli CABBAROV**

## Sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası gözlənilməz hadisələr zamanı onlara dəyə biləcək zərərlərə maddi təminat verir

***Sahibkarlıq fəaliyyəti zamanı risklərdən sığortalanma biznesin uğuruna zəmanət verən mühüm amillərdəndir. Əmlak sahibi olan hər bir sahibkar, adətən, öz biznesinə məsuliyyətlə yanaşır, gözlənilməz hadisələrdən vaxtında sığortalanmaqla dəyə biləcək zərərlərdən maddi təminat alınmasını təmin edir.***

Sığorta və sahibkarlıq fəaliyyəti bir-birindən asılı olan sahələrdir. Tarixən bu iki sahə arasında sıx əlaqələr olub. Belə ki, sığorta fəaliyyəti sahibkarların risklərini bölüşməklə, ümumilikdə, iqtisadiyyatın inkişafı üçün çox mühüm olan bir məsuliyyəti də öz üzərində daşıyır. Buna görə də sığortaya olan tələb artdıqca, o, sahibkarlıq fəaliyyətinin bütün sahələrində real olaraq özünü hiss etdirir. Ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında sahibkarların sığortaya olan tələbatı da azad bazar sisteminin bərqərar olması və həyatın bütün sahələrində müşahidə olunan sürətli inkişafla əlaqədar daha da genişlənir.

Muxtar respublikamızda sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün tətbiq edilən daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı zamanı mülki məsuliyyətin icbari sığortası bu baxımdan çox əhəmiyyətlidir. Belə ki, daşınmaz əmlak sahibkarların biznesini genişləndirmək və gəlir götürmək üçün əsas vasitələrdəndir. Əgər sahibkarın əmlakına zərər vurulubsa, onun biznesinə də zərər dəyəcək. Misal üçün, əgər obyektdə yanğın baş verərsə, müəssisənin işində fasilə yaranacaq, istehsal və satış dayanacaq. İşçilərə əməkhaqqı ödənə bilməyəcək və müəssisə müflisləşəcək. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası zamanı sahibkarın sərəncamında olan daşınmaz əmlakın istismarı zamanı üçüncü şəxslərin həyatına və əmlakına vurula biləcək zərərlərə qarşı bu sığorta növü üzrə müqavilə bağlanmaqla sığorta təminatı verilir.

Ölkəmizdə 24 iyun 2011-ci il tarixdə qəbul olunmuş "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə daşınmaz əmlakın icbari sığortası zamanı sahibkara bütün təbii və texnogen hadisələrdən sığorta təminatı verilir. Bu qanuna uyğun olaraq, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari qaydada sığortası da aparılır. Qanuna əsasən, daşınmaz əmlakın istismarı zamanı yaranan mülki məsuliyyətin icbari sığortasında istismar edilən daşınmaz əmlak dedikdə fərdi evlər istisna olunmaqla, istehsal və xidmət məqsədilə istifadə olunan bütün binalar, tikililər, qurğu və sahələr başa düşülür. Belə əmlakın istismarı, o cümlədən həmin əmlakın ərazisində inşaat, təmir, yenidənqurma və digər işlərin yerinə yetirilməsi zamanı üçüncü şəxslərin həyatı və sağlamlığına dəymiş zərərlərin əvəzinin ödənilməsi məqsədilə icbari sığorta tətbiq edilir. Belə zərərlərə səbəb olan hadisələrə gəldikdə isə bunlar yanğın, qaz partlayışı, qısaqapanma, su, istilik və kanalizasiya xətlərində baş verən qəza nəticəsində yaranan subasma, hər hansı predmetin və ya onun hissələrinin düşməsi kimi hadisələr hesab olunur. Şübhəsiz, belə hadisələr baş verdikdə daşınmaz əmlak sahibkarı burada olan insanların həyatına, onların sağlamlığına və əmlakına mülki məsuliyyət daşıyır.

Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığortahaqqı istehsal və qeyri-istehsal sahəsinin təyinatından asılı olaraq 30 manatdan 120 manatadək məbləğdə müəyyən edilir. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta məbləğləri isə fiziki şəxslərin sağlamlığına dəyən zərər üzrə ümumi sığorta məbləği 50 min manatdan çox olmamaq şərtilə, bir fiziki şəxsin sağlamlığına dəyən zərər üzrə 5 min manat, əmlaka dəyən zərər üzrə isə 50 min manat müəyyən olunub.

Sahibkarlar üçün icbari sığortanın yuxarıda sadalanan növlərinin mühüm bir üstünlüyü onların sosial əhəmiyyətə malik olmasıdır. Başqa sözlə, bu sığorta növü cəmiyyətdə hər kəs üçün faydalıdır. Bu gün Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti yüksəlməkdə, neçə-neçə yeni istehsal və xidmət müəssisələri yaradılmaqdadır. Buna görə də sahibkarlar öz biznesindən daha çox mənfəət əldə etməsi və rahat fəaliyyət göstərməsi üçün öz daşınmaz əmlaklarını və daşınmaz əmlaklarının istismarı zamanı mülki məsuliyyətlərini sığorta etdirmələri vacibdir.

**Hafiz HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş mütəxəssisi***

***Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi işsizlik probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Son illər Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasında və əhalinin işlə təminatında əsaslı rol oynayır.***

## Səhiyyə işçiləri üçün əmək yarmarkası keçiriləcək

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaratmış, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açmışdır. Dövlət proqramına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə səhiyyə işçiləri üçün əmək yarmarkası keçirəcəkdir. Əmək yarmarkasında işaxtaranlara 540 vakant iş yeri təklif olunacaqdır ki, onlardan da 401-i həkim, 139-u isə orta tibb işçisidir. Yarmarka bu il sentyabr ayının 16-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin inzibati binasında təşkil olunacaqdır. İşaxtaran ali və orta tibb təhsilli məzunların iştirakı məqsədəuyğundur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Sağlam bədəndə sağlam ruh olar, – deyiblər. Bu gün öz sağlamlığının qədrini bilən insanlar idmanla da məşğul olurlar. Hazırda muxtar respublikamızda bu sahə ilə məşğul olmaq üçün hər bir şərait yaradılıb. İdman federasiyalarına yüzlərlə gənc cəlb olunub. Muxtar respublikada daha çox müraciət olunan federasiyalardan biri də Şərq Döyüşü Sənəti Federasiyasıdır. Şərq ölkələrində “payız nəğməsi”, “bahar gülü”, “Şərqə açılan yol”, “müdafiə və elmin vəhdəti” kimi mənaları kəsb edən Şərq döyüşü fəlsəfə ilə döyüş sənəti harmoniyasını birləşdirir.*

## Şərq Döyüşü Sənəti Federasiyasının yetirmələri bu ilin ötən dövründə ölkədaxili və beynəlxalq turnirlərdə 20 medal qazanıblar



2002-ci ildən fəaliyyət göstərən federasiyanın nəzdində taekvando, kikboksinq və MMA qaydasız döyüş bölmələri var. Muxtar respublikanın şəhər və rayonlarında bölmələri olan federasiyada 20-dən çox məşqçi-müəllim çalışır. Bununla yanaşı, Naxçıvan şəhərində kikboksinq idman növündə 4 qrupda, taekvando üzrə 2 qrupda, MMA qaydasız döyüş idman növündə 2 qrupda, Babək rayonunda kikboksinq üzrə 2 qrupda, Şərur rayonunda kikboksinq üzrə 3 qrupda, Şahbuz rayonunda kikboksinq üzrə 2 qrupda 500-dən çox yeniyetmə və gənc bu növlərin sirlərini öyrənir. Şərq Döyüşü Sənəti Federasiyasında həmçinin 14 nəfərdən ibarət hakimlər kollegiyası fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyası cari ilin ilk 8 ayında böyük uğurlara imza atıb. Federasiyanın sədr müavini Cavanşir Salayev bizimlə söhbətində vurğuladı ki, federasiyanın yetirmələri daha çox ölkədaxili və beynəlxalq turnirlərdə uğur qazanıblar. Belə ki, Nail Hüseynov aprel ayında Ukraynanın Xarkov şəhərində keçirilən kikboksinq üzrə Avropa çempionatında Azərbaycanın Dövlət Himnini səsləndirməyə müvəffəq olub. Bununla yanaşı, elə aprel ayında federasiyanın yetirmələri əvvəlcə MMA üzrə Azərbaycan çempionatında çıxış ediblər. 1 qızıl, 8 gümüş və 1 bürünc medal qazanan idmançılarımız komanda hesabında da qaliblər sırasında olublar. Kikboksinq üzrə Azərbaycan birinciliyində isə idmançılarımız 1 qızıl, 2 gümüş medal qazanıblar. Bu, kikboksinqdə qazanılan tək uğur deyil. Belə ki, yetirmələrimiz fevral ayında da keçirilən analoji birincilikdə 6 müxtəlif əyarlı medal əldə ediblər.

Cavanşir Salayev muxtar respublikada keçirilən turnirlər barədə də məlumat verdi: “Federasiyamız cari ilin ötən dövrü ərzində Gənclər və İdman Nazirliyi ilə birgə bir sıra yarışlar, turnirlər təşkil edib. Yanvar ayında kikboksinq, fevral ayında taekvando, mart ayında isə MMA qaydasız döyüş idman növləri üzrə muxtar respublika birincilikləri keçirilib. Sevindirici haldır ki, bu birinciliklərdə yüzlərlə yeniyetmə və gənc idmançı mübarizə aparıb. May ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş kikboksinq üzrə “Heydər Əliyev kuboku” uğrunda yarışda idmançıların çıxışları daha çox yaddaqalan olub. Ümumiyyətlə, 8 ay ərzində federasiya nazirliklə birgə şəhər və rayonlarda 20-dən çox yarış, turnirlər təşkil edib. Həmçinin bu dövrdə Bakı şəhərindən dəvət olunmuş məşqçilər tərəfindən idmançılar və məşqçi-müəllimlər üçün seminarlar keçirilib”.

“Təbii ki, qazandığımız uğurlar federasiyamız üçün yaradılan şəraitdən irəli gəlir”, – deyən federasiyanın sədr müavini gələcək planlar haqqında da danışdı: “Qarşıdakı aylarda məqsəd federasiyanın nəzdində fəaliyyət göstərən bölmələrin iş qrafikini genişləndirmək və yeni idmançıları cəlb etməkdir. Şəhər və rayonlarda yeni bölmələrimiz açılacaq. Bunun üçün şərait də yaradılıb. Eyni zamanda federasiya Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq şəhər və rayon birincilikləri təşkil edəcək. Uğur qazanan idmançılarımız isə ölkə birinciliklərində Naxçıvanı təmsil edəcəklər”.

## Cüdo üzrə Naxçıvan şəhər birinciliyinə yekun vurulub

*İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında kiçikyaşlı yeniyetmələr (2004-2006-cı illər təvəllüdlü) arasında cüdo üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 9 çəki dərəcəsi üzrə 50 idmançı mübarizə aparıb. Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, bu yarışı keçirməkdə məqsəd idmançıları zərərli vərdişlərdən kənarlaşdırmaq və onları cüdo idman növünə cəlb etməkdir.

Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov birinciliyin keçirilmə qaydaları haqqında idmançılara geniş məlumat verib.



Beynəlxalq Cüdo Federasiyasının qaydaları əsasən keçirilən yarışda Elvin Cəfərli, Səid Seyidov, Sami Səfərov, Ramil Qoçaliyev, İbrahim Məmmədqasımov, İsmayıl Məmmədqasımov, Amil Musayev, Rauf Cabbarlı və Fuad Babayev müvafiq olaraq 20, 23, 26, 29, 34, 38, 42, 46 və 50 kiloqram çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

## Estafet qaçışı üzrə yarış

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin daxili işlər orqanları arasında estafet qaçışı üzrə yarış keçirilib.***

Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən yarışda 14 komanda mübarizə aparıb. 100-ə yaxın polis işçisinin iştirak etdiyi yarışın keçirilməsində əsas məqsəd yığma komandanın tərkibini müəyyən etmək və Bakıda keçiriləcək ölkə birinciliyinə hazırlaşmaqdır.

Hər komandanın heyətində 6 idmançının mübarizə apardığı yarışın yekun nəticəsinə əsasən, Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının komandası qalib adını qazanıb. Naxçıvan Şəhər Polis İdarəsi və Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin komandaları isə digər iki pillədə qərarlaşıblar.

Sonda qalib komandalar diplomlarla mükafatlandırılıblar.

## Yüngül atletika üzrə yarış keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Paralimpiya Federasiyasının təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublika Stadionunda paralimpiyaçılar arasında yüngül atletika (100-200 metr məsafəyə qaçış) üzrə yarış keçirilib.

Yarışda məhdud fiziki imkanlı 20 idmançı iştirak edib. Yekun nəticəyə əsasən, Okan Bağçıdək (Şərur) finiş xəttinə hamıdan tez çatıb. Digər iki pillədə isə İlqar Sadiqov (Şahbuz) və Orxan Hüseynov (Babək) qərarlaşıblar. İlk üç yeri tutan idmançılara Paralimpiya Federasiyasının mükafatları, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim edilib.

Qeyd edək ki, idmanın müxtəlif növləri üzrə yarışların keçirilməsi istedadlı idmançıların aşkara çıxarılmasına, onların təcrübələrinin artmasına şərait yaradır, həmçinin məhdud fiziki imkanlı gənclərin idmana olan maraqlarını artırır.

✍ Ceyhun MƏMMƏDOV

## “İrs” adlı uşaq rəsm sərgisi

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Bilik Gününə həsr olunmuş “İrs” adlı uşaqların rəsm sərgisi keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, xüsusi istedad tələb edən bir sənət kimi rəssamlığa balacaların da maraq göstərməsi çox sevindirici haldır. Onların istedadlarının üzə çıxarılması, düzgün formalaşdırılması üçün muxtar respublikada hərtərəfli şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin vəzifələrindən biri də onlara gələcək sənət yollarında irəliləmək üçün kömək etməkdir.

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru, Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Namiq Novruzov çıxış edərək vurğulayıblar ki, muxtar respublikada bütün sahələrdə istedadlı gənclər yetişir. Bu gün rəssamlıq sənətinə maraq göstərən uşaqların da gələcəkdə yaxşı sənət adamı kimi formalaşmasında belə tədbirlərin böyük rolu var. Çıxış edənlər balaca rəsm həvəskarlarına uğurlar arzulayıblar.

Uşaq rəsm sərgisində fəallığına görə fərqlənən balaca rəssamlara diplomlar təqdim edildikdən sonra sərgiyə baxış keçirilib. Burada Aysel Əmrahovanın, Aysu Zeynalovanın, Şəhrizad Quliyevanın, Nərgiz Hacıyevanın, Sevinc Quliyevanın, İsmayıl Bilalovun, Bağdagül Hüseynovanın və başqa balaca rəsm həvəskarlarının rəsmləri nümayiş olunur.

Rəsmlərdə uşaq dünyasının böyüklərin dünyasından fərqləndiyi açıq-aşkar hiss edilirdi. Sərgi salonunda təbiət mənzərələrindən tutmuş cizgi filmlərinin qəhrəmanları da daxil olmaqla rəsmlər yerləşdirilib. Uşaqların rəngli dünyası sərgiyə baxmağa gələnlərin diqqətini cəlb edir, onlar hər bir rəsmə xüsusi nəzər yetirirdilər.

Qeyd edək ki, 47 istedadlı uşağın hərəsinin 3-4 rəsmi nümayiş olunan bu sərginin ən böyük iştirakçısının 14 yaşı var.

✍ Fatma BABAYEVA

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

***Muxtar respublikamızda avqust ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib. Yenidoğulmuş uşaqların 97,5 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd alıb. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilib, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 38 min 467 kvadratmetr dezinfeksiya və 54 min 390 kvadratmetr dezinseksiya tədbirləri həyata keçirilib.***

Uşaq-yeniyetmə müəssisələri və məktəblərdə monitorinqlər və maarifləndirici tədbirlər aparılıb.

Kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd-gömrük məntəqələrində, həmçinin Naxçıvan Beynəlxalq Hava Limanında profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər həyata keçirilib. Muxtar respublikaya xarici ölkələrdən gələn sərnişinlər üzərində xəstəliyə şübhəli hərarətli şəxslərin aşkar olunması üçün uzaq məsafədən ölçən termometr sistemləri vasitəsilə bütün gömrük məntəqələri və hava limanında vətəndaşlar üzərində vizual müayinə aparılması təmin olunub. Həmçinin bütün regional gigiyena və epidemiologiya mərkəzləri tərəfindən həftədə iki dəfə su və torpaq nümunələri Xüsusi təhlükəli infeksiyalar laboratoriyasına göndərilib.

Ay ərzində Bakterioloji laboratoriya fəaliyyətini davam etdirilib, 360 su, 334 yuyuntu və 1424 digər nümunələrin müayinələri aparılıb.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 273, təhsil üzrə 25, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 247, kommunal sahələr üzrə 111, sürücülük üzrə 17 nəfər olmaqla, bütövlükdə, 673 nəfər müayinədən keçib.

Qidalanma gigiyenası laboratoriyasında 19 nümunədə 26 müayinə aparılıb, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 2 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilib.

Kommunal gigiyena laboratoriyasında 92 nümunədə 110, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 4 nümunədə 9 müayinə aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib, 14 mühazirə oxunub, tibbi şurada 5 məsələ müzakirə edilib.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin mətbuat xidməti**

***İtmişdir***

Ordubad “Quşçuluq” Açıq Səhmdar Cəmiyyətinin (VÖEN-0400017711) qeydiyyat sənədləri itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 689